# Neofaşizm

## Bu dəfə erməni işğalçılarının əməllərində

**Yaşlı və orta nəslin nümayəndələri vaxtilə unudulmaz müğənnimiz Müslüm Maqomayevin təkrarsız ifasında səslənən "Buhenvald harayı" mahnısını yaxşı xatırlayırlar. Bu, İkinci Dünya müharibəsindən sonra antifaşizm mövzusunda yaranmış mahnılardan biri, bəlkə də birincisi, yəni ən ecazkarı idi.**







Buhenvald (Buchen Wald) almancadan tərcümədə "fıstıq meşəsi" deməkdir. Almaniya ərazisindəki ən iri əsir düşərgələrindən biri məhz belə bir meşənin qoynunda yerləşmişdi. 1937-ci ilin iyul ayından 1945-ci ilin aprel ayınadək mövcud olan bu düşərgədə minlərlə insan həyatla vidalaşmışdı.

Lakin şair Sobolevin və bəstəkar Muradelinin əsl sənət nümunəsi olan sözügedən mahnısının mövzu əhatəsi təkcə Buhenvaldla məhdudlaşmır. Bu mahnı, ümumiyyətlə, faşizmə, günahsız insanların qətlə yetirilməsinə, uşaqlara, qocalara, qadınlara qəsd edilməsinə qarşı bir üsyan kimi səslənir.

O dövrdə dünyanın ayrı-ayrı guşələrində faşizm bir çox xalqların sinəsinə dağ çəkib. İllər, onilliklər keçir və həmin qəddarlıq hissləri heykəllərdə, memoriallarda, xatirə komplekslərində tarixiləşdirilərək yeni-yeni nəsillərə olmuş həqiqətləri nağıl edir.

Bir çoxlarımız Rusiyanın Sankt-Peterburq şəhərində (keçmiş adı Leninqraddır) olmuşuq və oradakı Piskaryov qəbiristanlığını görmüşük. Böyük xatirə kompleksinə çevrilmiş bu məkanda 1941-1942-ci illərdə Leninqrad blokadasında Hitler faşizminin məhvə məhkum etdiyi on minlərlə günahsız insan, müxtəlif yaşlı şəhər sakinləri uyuyur...

Polşanın Osvensim şəhərindəki həbs düşərgəsində də alman faşistləri minlərlə insana əzab verib və məhv ediblər. Müharibədən sonra polyaklar buranı muzeyə çeviriblər ki, hər dəfə olub-keçənləri xatırlayaraq faşizmə dönə-dönə lənət oxusunlar.

Belarusda isə 1943-cü ildə faşistlərin Yer üzündən sildiyi Xatın kəndi var. Daha doğrusu, bu kəndin yalnız yeri qalıb və indi orada memorial kompleksdən başqa heç nə yoxdur. 1941-1944-cü illərdə faşistlər Belarus torpağında çox belə faciələr törədiblər. Xatında isə partizanlara kömək göstərdikləri ehtimal edilən kənd sakinlərinə hitlerçilər tərəfindən ümumi cəza prinsipi tətbiq olunub. Onları bir-bir güllələyib, yaxud diri-diri yandırıblar... Faşizmin törətdiyi ən tükürpədici, kədər və hiddət doğuran cinayətlərindən biridir bu.

Dünyada dinc əhalinin heç bir günahı olmadan məhv edildiyi barədə söz düşəndə tarixdən bildiyimiz daha iki hadisəni - ABŞ-ın 1945-ci il avqustun 6-da və 9-da Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atom bombası endirməsini də xatırlayırıq.

Elə Müslümün "Buhenvald harayı" da məhz bütün bunları yada salırdı, bütün bunlara qarşı etiraz, üsyan kimi səslənirdi. Bu mahnını dinləyər və heç güman etməzdik ki, həmin hadisələrdən onilliklər keçəndən sonra Azərbaycan torpağında da günahsız qocalar, qadınlar, uşaqlar qətlə yetiriləcək, atəşə tutulacaq, bombalanan şəhərlərimizin uçuntuları altında qalacaq. Həm də bunu kim edəcək? Öz qonşumuz, bizə dildə "dost" deyən, sonra da torpaqlarımızın 20 faizini işğal edən ermənilər. Demə, içərilərindəki faşist xisləti getdikcə qabarır, genişlənir, rişələnirmiş.

Erməni faşistləri bizdən torpaq qoparmaq iddiasına düşərək olmazın çirkin oyunlardan çıxdılar. Bəşəriyyətin getdikcə inkişaf etdiyi, ağılla, kamalla xariqələr yaratdığı, xalqların bir-birinə daha da yaxınlaşdığı, mədəniyyətlərin, iqtisadi sahələrin dünyaya inteqrasiya etdiyi bir dövrdə mənfur qonşularımız ağıllarını itirdilər. İşğalçılıqla, oğurluqla, talançılıqla, qatilliklə məşğul oldular. Onlara daim yaxşılıq edən qonşularına xain çıxdılar. Qocalara atəş açdılar, təzə doğulmuş körpələri yandırdılar, qadına, qıza xəyanət etdilər... XX əsrin sonunda Xocalı soyqırımını törətdilər. Ah-naləsi göylərə bülənd olan günahsız insanları pərən-pərən salıb qışın oğlan çağında yollarda, meşələrdə qətlə yetirdilər...

1994-cü ildə əldə olunmuş atəşkəsi həmin vaxtdan indiyədək dəfələrlə pozan Ermənistan 2016-cı ilin Aprel döyüşlərində aldığı zərbədən belə nəticə çıxarmadı. Bu il yenə də təxribatlar törətdi, yeni ərazilər işğal etmək xülyasına düşdü. Bir neçə ay əvvəl sərhədin Tovuz istiqamətində daha bir vandalizmə əl atdı, evləri vurub dağıtdı, nəticədə yaşlı kənd sakini həlak oldu. Amma burada da düşmənin mənfur niyyəti gözündə qaldı. Çoxsaylı insan itkisi verdi, silahları darmadağın edildi. Eybəcər xislətindən yenə də dönmədi. Belə ki, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi atəşə tutdu.

"Sirkə nə qədər tünd olsa, öz qabını çatladar" deyiblər. İndi ermənilər etdiklərinin cavabını alırlar. Azərbaycan xalqı öz müdrik Prezidenti ətrafında bir yumruq kimi birləşərək düşmənə qarşı haqq savaşına qalxıb. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu işğalda olan kənd və şəhərlərimizi yağı tapdağından azad edir.

Döyüş meydanında qələbələr qazanan ordumuzla bacara bilməyən düşmən isə məğlubiyyət acısının və xəcalətinin əvəzini Azərbaycanın dinc əhalisindən çıxır. Namərdcəsinə şəhərlərimizi bombalayır, kəndlərimizi atəşə tutur, mülki-strateji obyektlərimizi hədəfə alır. Dəfələrlə Azərbaycanın ikinci böyük şəhəri Gəncəni, Tərtər, Bərdə və digər bölgələrimizi bombalayıb. Qadağan olunmuş silahlardan istifadə edərək döyüş meydanından xeyli uzaqda yerləşən ərazilərdə yaşayan, heç bir günahı olmayan dinc insanların qanına bais olub. Ata-ana körpə balasını itirib, uşaqlar yetim qalıb, bəzən də bütün ailə məhv olub. Deməli, Xocalı soyqırımını törədən erməni vandalları öz adətlərindən əl çəkməyiblər, dəhşətli, ağlasığmaz, qeyri-insani hərəkətlərini davam etdirirlər.

Biz bunların qisasını döyüş meydanında alırıq. Prezidentimizin dediyi kimi: "Baxmayaraq ki, namərd, xain, alçaq düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur, bugünkü atəş nəticəsində azyaşlı uşaqlar da həlak olub, mən bir daha demək istəyirəm ki, biz qisasımızı mülki vətəndaşlardan almamalıyıq. Biz döyüş meydanında qisasımızı alırıq, alacağıq, şəhidlərimizin, həlak olanların qanı yerdə qalmır və qalmayacaqdır... Onsuz da onların iz-tozu o torpaqlarda qalmayacaq. Onsuz da onları biz sona qədər qovub torpağımızdan rədd edəcəyik".

Erməni vandalları ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardan ibarətdir və onlar məsuliyyətdən boyun qaçıra bilməyəcək, əməllərinə görə cəzalarını alacaqlar. Onlar insanlığın, qanunun, Allahın, vicdanın və Azərbaycan xalqının qəzəbindən, mühakiməsindən can qurtara bilməyəcəklər.

"Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır" - deyir müdrik Prezidentimiz.

Ərazilərimiz yağı tapdağından tam azad ediləcək. Ermənilərin dinc əhaliyə qarşı törətdiyi vandalizm isə tarixə qara ləkə kimi düşəcək. Gün gələcək, onlar bu cinayətlərə görə hərbi tribunallarda cavab verməli olacaqlar. Çünki hər bir faşizmin sonu budur - məğlubiyyət və rüsvayçılıq. Bunu tarix dönə-dönə sübut edib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 7 noyabr.- S.9.